# Ömrün əzablı yolu



***Şirxan Aranlı Ağcabədi şəhərində yaşayır. Onun son illər qələmə aldığı iki hissədən ibarət "Ömrün əzablı yolu" romanında yaxın Qarabağ müharibəsi, onun ağır məşəqqətli ağrıları, işğal olunmuş Laçın rayonunun timsalında qaçqın, köçkün soydaşlarımızın əzablı köçkünlük həyatı geniş təsvir olunmuşdur.***

***Eyni zamanda orduda olan bəzi özbaşınalıqlar, Məmişov kimi bacarıqsız, hərbi səriştəsi olmayan bir komandirin səhlənkarlığı və tamahı ucbatından Laçın bölgəsinin işğala məruz qalması bədii boyalarla öz əksini tapmışdır.***

***Onun əksinə olaraq yeni təyin olunan komandirin - Mətin Məmmədovun fədakarlığı, son məqamda hərbi tapşırığı yerinə yetirərkən hərbiçi yoldaşı ilə erməni əhatəsində qalması və həmçinin mühasirədən çıxa bilməyib dağlarda sığınıb qalan laçınlı soydaşlarımızı toplayıb partizan dəstəsi yaradaraq düşmənə zərbələr vurması əsərin əsas ana xəttini təşkil edir.***

***Xalq qəhrəmanı Elpoladla birlikdə Mətin Məmmədovun rəhbərlik etdiyi partizan dəstəsi verilən hərbi tapşırıqları uğurla yerinə yetirdikdən sonra onlarla bərabər əsirlikdə olanlarımızı da azad edib erməni mühasirəsindən çıxırlar.***

***Bütün bu hadisələrin fonunda Qarabağ müharibəsinin Azərbaycanın başına açdığı sağalmaz bəlalar nə qədər ağır olasa da, xalqımızın ona mətanətlə sinə gərməsi və itirilən torpaqlarımızın azad olunması yolunda bir yumruq kimi birləşməsi, monalit birliyi əsərin əsas leytimotivini təşkil edir.***

**Romandan bir parça**

### *Səksəkəli günlər*

Dəhşətli top atəşi gecənin bir aləmində Mərdanlı kəndini şirin yuxudan oyatdı. Yer-göy lərzəyə gəldi. Kərim kişinin evi kəndin lap girəcəyində olduğundan atəşin qüvvətli zərbəsindən pəncərələrin şüşəsi çilik - çilik olub yerə töküldü. Kərim kişi ilə bərabər evin bütün sakinləri səksəkəli halda yuxudan dik atıldı.

Balaca Könül ağlaya-ağlaya anasına qısıldı:

-Ana, ermənilər gəldi ?!

-Qorxma qızım, evləri yıxılmışlar yenə də atırlar.

Kərim kişi xəbərdarlıq edirmiş kimi :

-Ay uşaqlar, işığı yandırmayın, qudurmuşlar evi nişan alar.

Əslində heç yandırmağa işıq da yox idi. Ermənilər kəndin işıq transformatorunu vurub yandırdığından caamat işıqsız qalmışdı.

Axşamlar hamı evində keçmiş dədə-baba qaydası ilə hisli çıraq yandırır, pəncərələrə qalın pərdə çəkirdilər ki, bayıra işıq düşməsin. Çünki cəbhə xətti yaxın olduğundan axşamlar işıq gələn evi ermənilər nişan alırdı.

Xəstə Gülzar nənədən başqa ailə üzvləri hamısı durub yataq yerinin içində oturdu. Kərim kişi papiros çıxarıb yandırdı. Barmaqları arasında közərən papirosla bərabər ürəyi də közərib yanırdı. Gecənin bir aləmində torpaq, el-oba dərdi, ailənin gələcək taleyinin qayğıları onu için - için yandırırdı. Lakin özünü o yerə qoymadı, içində çəkdiklərini biruzə verməməyə çalışaraq, uşaqlara təskinlik verdi:

-Ay bala yıxılın yatın, birinci dəfə deyil ki, onsuzda neçə vaxtdır günümüz budur. Yəqin yenə də kənddə işıq yandırıblar, ermənilər nişan alıb.Könül, keç ananın yanında yat, qızım.

Kərim kişi arvad- uşağı yatırtmaq istəsə də özü yatmadı. Hər ehtimala qarşı durub paltarını geydi. Neçə gündür ağır vəziyyətdə xəstə yatan anasının yanına keçdi.

Gülzar nənə yataqda xırıldayırdı. Kərəm kişi qaranlıqda dəmir çarpayıda yatan anasının üzündən öpüb:

-Nə təhərsən ana ? - dedi.

- Nə təhər olacam ay bala, evləri yıxılmışlar imkan vermirlərki, rahat yıxılıb öləm. Deyəsən beləki başlayıblar yurd - yuvamızda bir quru gorgah da qismətim olmayacaq.

-İnşallah bir şey olmaz, ay ana, özündə dünya görmüş arvadsan, erməniyə yaxşı bələdsən. Bu, erməni xörəyi deyil ki, başımıza bu oyunu açsın, onları da qısqırdıb üstümüzə salan var.

-Nə bilim ay bala, təki Allah axırını xeyir eləsin, canımız bu bəladan qurtarsın.

-Narahat olma yat ana, Allah qoysa hər şey yoluna düşər.

Kərim kişi yorğanı anasının üstünə çəkdi, çırağın lap közərmiş işığında onun güclə görünən üzündən öpüb öz yerinə keçdi, paltarını soyunmadan yerinə uzandı.

Əlindəki papiros da tam yanıb qurtardı, gözlərinə yuxu getmədi, qayğılı fikirlər rahatlığını pozdu, aranı dağa, dağı arana apardı...

...Neçə gün idi ki, artıq Mərdanlı kəndindən tək-tək evlər çıxırdı. Döyüş xətti gəlib kəndin lap yaxınlığında qərar tutmuşdu. Gecə - gündüz erməni dığaları camaata göz verib, işıq vermirdi. Camaat gündüzlər kəndin mal-qarasını kəndin kənarında yerləşən örüşə apara bilmirdi. Qız, gəlinlər də kəndin qırağında yerləşən bulaqdan su götürməyə çətinlik çəkirdi, ona görə də içməli suyu gecələr kişilər daşıyırdı.

Sonralar kişilərin də su gətirməyi probleme çevrildi Erməni kəşfiyyatçıları gecələr bulağa gedən yola bəzən xəlvət piyada əleyhinə mina basdırıb gizlətdiyindən kəndin bir neçə sakini su gətirməyə gedəndə, yaxud su götürüb qayıdanda minaya düşüb ağır yaralanmış, iki nəfər isə ölmüşdü.

Kəndin başqa su mənbəyi olan, dağlardan axıb gələn su arxına isə ermənilər gah zəhər, gah da murdar şeylər tökdüyündən adamlar həmin sulardan da istifadə edə bilmirdi. Əlacsız qalan kənd sakinləri kəndin içində bir neçə yerdə həyətlərdə su quyusu qazıb əl-ayaq işində onun suyundan istifadə edirdilər.

Zəruri ərzaq şeylərindən kənd camaatı korluq çəkirdi. Kəndin yeganə mağazasına rayondan gündəlik ərzaq malları çox gec - gec gəlirdi. Demək olar ki, Səməd kişinin dükanında hər gün belə söz - söhbət eşidilirdi:

-Səməd dayı, anam deyir paltar sabunu versin.

- Yoxdu ay bala.

- Səməd qardaş, mənə bir kilo düyü və yarım kilo noxud ver.

- Yoxdu Zəhra bacı, yəqin bir - iki günə gələr, gəlib alarsan.

- Ay Səməd un gətirmədin ki, ?

-Yox ay Cəmil, elə rayondan deyirlər göndərəcəyik, hələ də bir şey yoxdur.

-Ay qardaş, yaxşı indi biz neyləyək, deyirsən uşaqlar acından qırılsın ?!

-Niyə qırılır ay Cəmil, uşaqlar gəlsin bizdən un aparsın, olanda qaytararlar.

-Vallah bu olmadı, bilmirik erməni dərdi çəkək, yoxsa çörək dərdi ...

- Cəmil, müvəqqəti çətinlikdi gərək dözək, özün bilirsən ki, ermənilər körpünü dağıdıb kəndə maşın gəlib - gedə bilmir. Rayondan malı da ona görə göndərə bilmirlər. Köpək uşağı atəş açıb imkan da vermir ki, bizimkilər körpünü düzəltsin. Beləcə quru oda düşmüşük.

-Düz deyirsən ay Səməd, vallah adam birdən təntiyir, artıq - əskik danışır, sən allah incimə.

-Niyə inciyirəm ay qardaş, Allah erməninin, cəzasını versin.

-Amin ...

Kərim kişi gecəki hadisədən sonra uzun müddət yata bilmədi. Səhər üzü bir balaca gözlərinə yuxu getdi. Az - çox yatmışdı ki, arvadı Kamilənin hay - harayı onu yuxudan oyatdı:

-Ay evi yıxılan nə yatmısan ?! Qonşumuz Mələk xalanın oğlu Qorxmazın meydini gətiriblər. Yazıq arvadın gözünün ağı - qarası bircə oğlu əldən getdi...

-Nə danışırsan ay arvad, elə şey olmaz?!

-Olar kişi, olar, ölüm ayaq açıb qapılar gəzir, nə qocasına baxır, nə cavanına. Dur tez özünü ora yetir. Camaat tökülüb gəlib, bütün kənd ordadı. Deyirlər rayondan hökümət adamlarıda gəlib.

Qorxmaz Mələk xalanın tək oğlu idi. Yetimçiliklə böyütmüşdü. Neçə illər əvvəl atası maşın qəzasına düşüb, öldüyündən on bir - on iki yaşından onu tək böyütmüş, hətta Universitet oxutmuşdu, rayonda işləyirdi. Mələk xalanın başqa övladı yox idi. Yazıq arvad bu yaxınlarda gedib həmkəndlisi Cahangir müəllimin qızı Pərvanənin "hə" sini alıb barmağına nişan üzüyü taxmışdı. Toy tədarükünü görürdü, sevinci yerə göyə sığmırdı. İndi isə...

Neçə vaxt idi ki, Qorxmazla Pərvanə bir-birini istəməsinə baxmayaraq Cahangir müəllim qızını bu yetim oğlana,- Qorxmaza vermək istəmirdi. Deyirdi ki, qız hələ oxuyacaq, lakin birdən- birə hər şey dəyişdi. Kəndin ordudan yayınmağa çalışan bir neçə fərari oğlanlarının əksinə olaraq Qorxmazın heç çağrılmadan tək anasını bir damın altında qoyub cəbhəyə getməsi onun bu oğlana qarşı fikrini dəyişib rəğbətini artırdı. Arvadı Gülçöhrəyə dedi ki, xəbər elə adamlarını göndərsin. Bu xoş xəbər Mələk xalaya çatan kimi sevincdən uçmağa qanadı olmadı. İki günün içində yaxın qohum - əqrabadan bir - iki nəfər də götürüb, Cahangir müəllimin qapısına gedərək "hə bir, nişan bir" elədi. Pərvanənin barmağına nişan üzüyu taxdı.

...Bütün kənd axışıb Mələk xalanın qapısına gəlirdi. Həyətdə adam əlindən tərpənmək olmurdu. Cənazəni bir dəstə hərbiçi gətirmişdi. Meyid rayonda məsciddə yuyulub gətirildiyindən tabutu açmağa icazə vermirdilər. Belə məqamda qucağında oğlunun nişan paltarları ciggə çəkib evdən çıxan Mələk xalanın dəhşətli, ürək parçalayan çığırtısı izdihamı lərzəyə saldı:

-Açın tabutu, oğlumun nişan paltarların da yanına qoyum, daha bunlara baxa bilmərəm.

Yaxın adamlar yazıq arvadı ovutmağa çalışdı:

-Səbirli ol Mələk xala, özünü ələ al, tək sənin başına gəlmiyib ki, bununla neçənci əsgər tabutudu kəndə gəlir.

-Dözə bilmirəm ay camaat, dözə bilmirəm, qılçam qırılaydı müəllimin qapısına getdiyim yerdə, gül kimi qızı da bədbəxt elədim.

-Bunu deyib arvad yenidən əlini ağaran saçlarına atanda adamlar qoymadı, onu çəkib tabutdan aralamaq istədilər. Lakin nə qədər çalışdılarsa nişan paltarlarını tabutun üstünə töküb tabutu qucaqlayan Mələk xalanı tabutdan ayıra bilmədilər.

Qız gəlinlər içərisində başına qara örpək örtən Pərvanənində için- için hıçqırığını kəsə bilmirdilər. Bu sarsıdıcı məqamda heç kəsin baş açmadığı anlaşılmaz bir hadisə baş verdi. Qadınlardan biri Mələk xalaya yaxınlaşıb qulağına nə isə pıçıldadı.

Yazıq arvad yerindən dik atıldı, gözləri ilə qız - gəlin içərisindən Pərvanəni axtardı. Nişan paltarı qucağında özünü ona yetirdi:

-Bu sözləri deyən dilinə qurban olum ay bala odumun üstünə su tökdün, -deyib qismət olmayan gəlnini- Pərvanəsini dağlı sinəsinə sıxdı. Hər ikisi bir- birinə qoşulub ağladı. Biri hönkür - hönkür, biri için - için ! Hər ikisi eyni dərdə ağladı. Biri oğul dərdinə, biri nakam nişanlı dərdinə!

**(ardı var)**